“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 mart 2015-ci il № 21 (1937) Qiyməti 25 qəpik

## Ali Baş Komandan İlham ƏLİYEV:

# “Biz öz xalqımıza, öz gücümüzə güvənirik”

### Orduda aparılan son islahatlar ölkəmizin hərbi potensialını daha da gücləndirib

***İlin əvvəlində Nazirlər Kabinetinin iclasında iştirak edən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ölkənin sosial-iqtisadi inkişafının yekunlarından danışarkən son vaxtlar ordu quruculuğunda həyata keçirilən islahatlardan söhbət açmışdı. Ali Baş Komandan qeyd etmişdi ki, dövlətin güclənən diqqət və qayğısı sayəsində ordumuz daha da inkişaf edir, müasir silah-sursat və texnika alınır, şəxsi heyətin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.***



"Bu gün ölkəmizin siyasi-iqtisadi potensialı Ermənistandan qat-qat üstündür. Son illər ordu quruculuğu sahəsində görülən işlər nəticəsində biz hərbi üstünlüyü də əldə etmişik və öz potensialımızı getdikcə daha da artıracağıq", - deyə ölkə başçısı Silahlı Qüvvələrdə qısa bir vaxtda aparılmış islahatların əhəmiyyətini xüsusi vurğulamışdı. Əlbəttə, hazırkı dövrdə ordu quruculuğunda əldə olunan nailiyyətlərin əsasında dövlətin öz ordusuna olan güclü dəstəyi dayanır. Biz dəfələrlə yazılarımızda da qeyd edirik ki, ordu quruculuğunun müasir tələblər səviyyəsində inkişafı yalnız dövlətin artan iqtisadi potensialı nəticəsində mümkün olub. Xalqın öz ordusuna, öz əsgərinə olan inam və etibarı da Silahlı Qüvvələrimizin şəxsi heyətində döyüş ruhunun yüksəlməsinə zəmin yaradıb. Qədim hərb tarixinə və döyüş ənənələrinə malik olan xalqımız öz oğullarının əzm və qüdrətinə arxalanaraq zamanın çətin sınaqlarında daim rəşadət və qəhrəmanlıq nümayiş etdirib. İşğalın ağrı-acılarını yaşamış xalqımız yaxşı bilir ki, güclü ordu yaratmadan nə müstəqilliyini, nə də torpaqlarını qoruya bilər. Bu tarixi zərurətdən çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, güclü ordunun yaradılması daim mənim diqqət mərkəzimdə olacaqdır. “Azərbaycanın çox güclü ordusu olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir”.

Cəsarətlə qeyd etmək istərdim ki, Azərbaycan Silahlı Qüvvələri mövcudluğunun son ilyarımlıq müddətində çoxşaxəli hərbi islahatlar dövrünü yaşayır. Ordunun keyfiyyətcə yenidən komplektləşdirilməsi, peşəkarlığın yüksəldilməsi, müasir maddi-texniki bazanın yaradılması, hərbi qulluqçuların sosial rifahının yaxşılaşdırılması, qabaqcıl beynəlxalq təcrübələrin mənimsənilməsi baxımından, doğrudan da, qısa bir dövrdə doğma ordumuz əhəmiyyətli uğurlara imza atıb. Artıq Azərbaycan Ordusu regionda sürətlə inkişaf edən nizami, peşəkar və çevik orduya çevrilib. Bu gün ordu quruculuğu prosesi elə mühüm və həlledici mərhələyə qədəm qoyub ki, qazanılan nailiyyətlərlə yerindəcə, bilavasitə tanış olmadan Azərbaycan Silahlı Qüvvələrinin ürəkaçan durumunu canlandırmaq mümkün deyildir. İndi istər ön xətdəki hərbi bölmələrdə, istərsə də digər qoşun növlərində özünü büruzə verən irimiqyaslı quruculuq işləri yalnız qürur və iftixar hissi doğurur.

Azərbaycanın 2015-ci il üçün təsdiq edilmiş dövlət büdcəsində hərbi xərclərin böyük həcmdə artırılması bir daha dövlətin ordumuza verdiyi dəyərin təzahürüdür. Elə bunun da nəticəsində bölgələrdə əsgərlər üçün müasir məişət şəraitinin yaradılması bir tərəfdən ordunun şəxsi heyətində yüksək əhval-ruhiyyənin yaranmasına səbəb olubsa, digər bir tərəfdən də Azərbaycan xalqının Silahlı Qüvvələrə olan inam və etibarının güclənməsinə təkan verib. Ermənistanın hərbi birləşmələri tərəfindən dəfələrlə ön xətdə törədilən təxribat hallarının qarşısının qətiyyətlə alınması, Azərbaycan əsgərinin yüksək vətənpərvərlik nümunələrini təkrar etməsi və öz döyüş postunu qoruyarkən şəhidlik zirvəsinə yüksəlməsi xalqımızın orduya inamını daha da artırıb. Mən deyərdim ki, müasir dövrdə xalqımızla ordumuzun möhkəm birliyi formalaşıb. Bu gün işğalçı dövlətin ordusunda əsgərlər arasında ruh düşkünlüyünü, düşmənin qorxu, səksəkə içində yaşamasını doğuran əsas səbəblər məhz bizim birliyimizdən, gücümüzdən qaynaqlanır. Artıq işğalçı dövlətin gəncləri sabaha olan ümidlərini itiriblər, onlar müxtəlif yollarla hərbi çağırışdan yayınmağa çalışırlar. Ermənistanın bir çox ziyalıları, tanınmış nümayəndələri də etiraf edirlər ki, Dağlıq Qarabağın Azərbaycandan ayrılması mexanizmləri yoxdur və ola da bilməz. Əslində müharibə xofu yaratmaqla Ermənistan rəsmiləri sadə erməni xalqını vahimə içində yaşatmağa və öz hakimiyyətlərinin ömrünü uzatmağa cəhd göstərirlər.

İşğalçı Ermənistan dövlətindən fərqli olaraq Azərbaycan rəhbərliyi münaqişənin tezliklə ərazi bütövlüyümüzün bərpası ilə nəticələnəcəyinə tam inanır və qalibiyyətimizin əsas məğzini ordu ilə xalqın birliyində görür. Bir sözlə, Azərbaycan dövləti özünün siyasi qüdrətinə, həmçinin öz xalqının və ordusunun gücünə güvənir!

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu"**

## Baş nazir: Azərbaycan Ordusunun döyüş qabiliyyəti gündən-günə artır

***Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar, təəssüflər olsun ki, ötən il də heç bir nəticə verməyib. Ermənistanın münaqişənin həllində tutduğu mövqe mövcud status-kvonun saxlanılmasına, məsələnin həllinin qeyri-müəyyən müddətə uzadılmasına səbəb olur.***

Azərbaycanın Baş naziri Artur Rasizadə bu fikirləri Nazirlər Kabinetinin 2014-cü ildə fəaliyyəti barədə hesabatla çıxış edərkən deyib.

Baş nazir bildirib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bunu nəzərə alaraq, ordu quruculuğunun daim təkmilləşdirilməsini, onun ən müasir silah-sursatla təmin edilməsini, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılmasını gündəlik nəzarətində saxlayır. Son zamanlar hərbçilərimizin işğalçı erməni silahlı birləşmələrinin cəbhə xəttində törətdikləri təxribatlara verdiyi tutarlı cavablar Azərbaycan Ordusunun döyüş qabiliyyətinin gündən-günə artdığına əyani sübutdur.

"Düşünürəm ki, hərbi quruculuq və milli ordu ilə bağlı məsələlər bütün dövlət orqanlarının, digər qurumların və cəmiyyətimizin daim diqqət mərkəzində olmalıdır. Sevindirici haldır ki, artıq bu diqqəti və qayğını əks etdirən çoxlu qürurverici nümunələr var. Silahlı Qüvvələrə Yardım Fonduna toplanan könüllü ianələrin ilbəil artması da milli ordumuza göstərilən hərtərəfli ümumxalq dəstəyinin təzahürüdür", - deyə baş nazir əlavə edib.

**AzərTAc**

## Türkiyə və Azərbaycanın iştirakı olmadan regionda hər hansı strateji layihənin uğur qazanması mümkün deyil

***Türk Amerikan Assosiasiyalarının Assambleyası martın 13-14-də Vaşinqtonda 35-ci illik Türk-Amerikan Konfransı təşkil edib. Türkiyə Nazirlər Kabineti yanında xaricdəki türklər üzrə komitənin də dəstək verdiyi iki günlük konfransda Türkiyə və ABŞ rəsmiləri, Birləşmiş Ştatlardakı bir sıra türk təşkilatlarının təmsilçiləri, yerli elm xadimləri və tədqiqatçılar məruzələrlə çıxış ediblər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Baş nazir Əhməd Davudoğlu və xarici işlər naziri Mövlud Çavuşoğlu tərəfindən konfrans iştirakçılarına yazılı müraciətlər ünvanlanıb.***

Konfransın martın 14-də keçirilmiş sessiyalarının əsas qonaqları arasında Türkiyənin ABŞ-dakı səfiri Sərdar Kılıc ilə yanaşı, Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov da olub.

Elin Süleymanov məruzə ilə çıxış edərək müasir Türkiyənin beynəlxalq aləmdəki mövqeləri barədə danışıb və bu ölkəni regionda əvəzolunmaz tərəfdaş kimi xarakterizə edib. E.Süleymanov Türkiyə və Azərbaycanın iştirakı olmadan regionda hər hansı strateji layihənin uğur qazanmasının qeyri-mümkün olduğunu söyləyib. Səfir, eyni zamanda, Azərbaycanın regionda oynadığı strateji rol barədə söhbət açıb və ölkələrimiz arasında sarsılmaz bağların olduğunu vurğulayıb. O, Azərbaycan dövləti və xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamına sadiq şəkildə ölkələrimiz arasında münasibətlərin dərinləşməsinə önəm verdiyini söyləyib.

Keçmiş SSRİ respublikalarından hazırda Azərbaycanın ən müstəqil ölkə olduğunu vurğulayan səfir bu tarixi nailiyyətin ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin rəhbərliyi və strateji seçimləri sayəsində mümkün olduğunu deyib.

Diplomat Türkiyənin ölkəmizə verdiyi dəstəyin, xüsusilə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə cavab olaraq rəsmi Ankaranın tutduğu ədalətli və qəti mövqenin yüksək qiymətləndirildiyini vurğulayıb. O, Dağlıq Qarabağda müharibə cinayətləri, xüsusilə Azərbaycan xalqına qarşı Xocalı soyqırımının törədilməsində əli olan Ermənistanın keçmiş və hazırkı rəhbərliyinin 1915-ci il hadisələri ilə əlaqədar Türkiyəyə qarşı irəli sürdüyü iddiaların tamamilə uydurma olduğunu vurğulayıb. Bildirib ki, erməni lobbisinin dəstəyi ilə Türkiyəyə münasibətdə irəli sürülən bu böhtanlar türk kimliyini alçaltmağa yönəlmiş rəzillikdən başqa bir şey deyil. Səfir Ermənistanın Türkiyəyə münasibətdə bu əsassız iddialarının Azərbaycana qarşı apardığı işğalçı siyasəti ört-basdır etmək üçün istifadə etdiyini söyləyib. E.Süleymanov əlavə edib ki, Ermənistan rəhbərliyinin yürütdüyü düşmənçilik siyasəti bu ölkənin real müstəqillik və suverenlikdən məhrum olması ilə nəticələnib.

Səfir Azərbaycandan başlanan mühüm regional layihələrdə Türkiyənin iştirakını və qardaş ölkənin iqtisadiyyatına sərmayə qoyuluşunu xalqlarımız arasındakı qarşılıqlı etimadın əməli göstəricisi kimi qiymətləndirib və bu mənada Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu və "Cənub" qaz dəhlizini misal göstərib.

E.Süleymanov ABŞ-dakı türk və Azərbaycan icmalarının aktiv fəaliyyətlərinin və onların sıx əməkdaşlığının önəmini vurğulayıb.

**AzərTAc**

## Nyu-Meksiko ştatının qubernatoru:

# Biz Azərbaycanı bundan sonra da dəstəkləyəcəyik

***Nyu-Meksiko ştatının qubernatoru xanım Suzana Martinez Azərbaycan nümayəndələri ilə görüşüb.***

Görüşdə qubernatora Xocalı soyqırımının 23-cü ildönümü ilə bağlı açıqlamasına görə təşəkkür edilib. Bu kimi faciələrin təkrarlanmaması üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri, eləcə də münaqişə ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş sənədlər əsasında həllinə yönəlmiş səylərin artırılmasının zəruriliyi vurğulanıb.

Görüşdə Azərbaycan ilə Nyu-Meksiko ştatı arasında münasibətlərin yüksək səviyyədə olduğunu məmnunluqla qeyd edən Azərbaycanın ABŞ-dakı səfirliyinin müşaviri Məmməd Talıbov bu əlaqələrin daha da inkişaf etdirilməsinin və tərəflər arasında əməkdaşlıq imkanlarının öyrənilməsinin vacibliyini bildirib. O, eyni zamanda, Azərbaycanın müasir inkişafı, mədəniyyətlər və dinlərarası dialoqa verdiyi töhfə, həmçinin ölkəmizin ev sahibliyi edəcəyi beynəlxalq əhəmiyyətli tədbirlər barədə məlumat verib.

Qubernator Martinez öz növbəsində Azərbaycanın ABŞ üçün önəmini və ölkəmizin yaxın müttəfiq olduğunu vurğulayaraq, Nyu-Meksiko ştatının Azərbaycanı bundan sonra da dəstəkləyəcəyini deyib. O, Nyu-Meksiko ştatının ölkəmizlə əlaqələri daha da genişləndirməkdə maraqlı olduğunu deyərək, xüsusilə iqtisadi sahədə əməkdaşlıq imkanlarının araşdırılmasının önəmini qeyd edib.

S.Martinez Nyu-Meksiko tarixində seçilmiş ilk qadın qubernator, ABŞ tarixində isə ilk ispandilli qadın qubernator kimi tanınır.

Həmin gün Azərbaycan nümayəndələri Nyu-Meksiko ştatı Senatının plenar iclası zamanı Senat üzvləri tərəfindən rəsmi olaraq salamlanıb. Nyu-Meksiko Senatı tərəfindən bu il qəbul edilmiş, ölkəmizdə qədim tolerantlıq ənənələrini yüksək qiymətləndirən qətnamənin surəti Azərbaycan tərəfinə təqdim edilib.

Senatın sədr müavini Meri Key Papen və bir sıra digər senatorlarla görüşlər zamanı Azərbaycanın ABŞ üçün əhəmiyyəti, ölkəmizdə müstəqillik bərpa olunduqdan sonra, xüsusilə son iyirmi ildə bütün sahələrdə əldə edilmiş nailiyyətlər, həmçinin Nyu-Meksiko ilə Azərbaycan arasında mövcud münasibətlər müzakirə edilib. Bundan əlavə, Dağlıq Qarabağ münaqişəsi və Ermənistanın ölkəmizə qarşı davam edən işğalçılıq siyasəti barədə həqiqətlər senatorların diqqətinə çatdırılıb.

Nyu-Meksiko Nümayəndələr Palatasının spikeri Don Tripplə görüşdə Azərbaycan diplomatı ona Azərbaycan Dostları Assambleyasının (AFAZ) təşkilatçılığı ilə ABŞ-ın bir sıra ştatları ilə yanaşı, Nyu-Meksikoda da Xocalı qətliamının anılması ilə əlaqədar keçirilmiş tədbirdə iştirakına görə təşəkkürünü bildirib.

Nyu-Meksiko Senatı və Nümayəndələr Palatasının üzvləri ilə görüşlərdə isə son illər bu ştatın qanunverici qurumları tərəfindən Azərbaycanla bağlı, o cümlədən Xocalı soyqırımının tanınması, Dağlıq Qarabağ münaqişəsinin həlli və ölkəmizdə tolerantlığın səviyyəsinin nümunəvi olması barədə qəbul olunmuş qətnamələrin, eləcə də Azərbaycan icması və Azərbaycanın ABŞ-dakı səfirliyi, Los-Ancelesdəki baş konsulluğu ilə həyata keçirilən əməkdaşlığın yüksək qiymətləndirildiyi bildirilib.

Qeyd edək ki, 2010-cu ildən Nyu-Meksiko ştatının paytaxtı Santa Fe şəhərində ABŞ-da Azərbaycanın yeganə fəxri konsulu Art MakHafi fəaliyyət göstərir.

**AzərTAc**

# Müdafiə naziri Sloveniya Parlamentində olub



***14 mart 2015-ci il.***

Sloveniyada səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənovu bu ölkənin parlamentinin sədri doktor Milan Brqlez qəbul edib.

Görüşdə iki ölkə arasında münasibətlərin getdikcə genişlənməsi və əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyi vurğulanıb.

Cənab M.Brqlez dövlətlərimiz arasında oxşar tarixin və bir sıra ümumi maraqların olduğunu əsas gətirərək qarşılıqlı fəaliyyətlərin bundan sonra da davam edəcəyinə və birgə səylərin artırılacağına ümidvar olduğunu qeyd edib.

Onun sözlərinə görə II Dünya müharibəsi illərində partizan hərəkatında iştirak edərək qəhrəmancasına həlak olan və Sloveniya torpağında dəfn edilən əfsanəvi Mehdi Hüseynzadə xalqlarımız arasında məhz həmin mənəvi körpünün əsasını təşkil edir.

Müdafiə naziri öz növbəsində Azərbaycanın dəyərli qəhrəmanının xatirəsinə göstərilən ehtirama görə Sloveniya rəhbərliyinə və xalqına dərin minnətdarlığını bildirərək Cənubi Qafqaz regionundakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və ölkəmizin üzləşdiyi digər təhlükəsizlik məsələlərini də xüsusi olaraq diqqətə çatdırıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri Mehdi Hüseynzadənin məzarını ziyarət edib





***14 mart 2015-ci il.***

Sloveniya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Çepovan kəndində yerləşən qardaşlıq qəbiristanlığında dəfn olunmuş Sovet İttifaqı və Sloveniya Qəhrəmanı Mehdi Hüseynzadənin məzarını ziyarət edib.

Nümayəndə heyətinin üzvləri əfsanəvi qəhrəmanın şərəfinə ucaldılmış abidə önünə əklil qoyduqdan sonra, onun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Şempas qəsəbəsində yaradılmış muzeydə olublar.

Sonra Müdafiə naziri Azərbaycan-Sloveniya Dostluq cəmiyyətinin, Sloveniya ictimaiyyətinin nümayəndələri, Mixaylo ilə çiyin-çiyinə döyüşmüş silahdaşları və yerli sakinlər ilə görüşüb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# NATO-nun ekspert qrupu ilə görüş

***Martın 16-da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində NATO-nun Beynəlxalq Qərargahının ekspert qrupu ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyi zabitlərinin birgə işçi görüşü keçirilib.***




Müdafiə Nazirliyi Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov qonaqları salamlayaraq hərbi əməkdaşlıqla bağlı görülən işlər barədə məlumat verib. Azərbaycan Ordusunun NATO ilə müntəzəm əlaqələrindən, birgə keçirilən təlimlərdən və Azərbaycan sülhməramlılarının beynəlxalq təhlükəsizlik qüvvələri tərkibində sülhməramlı missiyanı uğurla həyata keçirməsindən danışıb. General-mayor Hüseyn Mahmudov işçi qrupu ilə görüşündə müdafiə sahəsində aparılan islahatlardan, NATO və Tərəfdaş ölkələrlə əməkdaşlıqdan, "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"nın və "Planlaşdırma və Analiz Prosesi" proqramları çərçivəsində məqsədlərin və öhdəliklərin yerinə yetirilməsindən söhbət açıb. Həmçinin, NATO ilə Azərbaycanın hərbi təhsil və təlim sahəsində birgə fəaliyyət planı və Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində görülən tədbirlər barədə məlumat verib.

Görüş zamanı Əfqanıstanda keçirilən "Qətiyyətli Dəstək" əməliyyatlarında Silahlı Qüvvələrimizin fəaliyyəti və Tərəfdaşlığın Qərargah Elementləri Konsepsiyası çərçivəsində NATO-nun müxtəlif qərargahlarında çalışan zabitlərimizin qazandığı təcrübə barədə müzakirələr aparılıb.

Tədbirdə çıxış edən NATO-nun Beynəlxalq Qərargahının ekspert qrupunun üzvləri Azərbaycan Silahlı Qüvvələri ilə hərbi əməkdaşlığın səviyyəsindən razılıqlarını qeyd ediblər.

**Mayor Bəxtiyar ƏLİYEV, "Azərbaycan Ordusu"**

*Qabaqcıl təcrübə*

# Uğurlar daha həvəslə xidmət etməyə sövq edir

***"N" hərbi hissəsinin tankçıları öz uğurları ilə fəxr edə bilərlər. 2014-cü ilin yekunlarına görə hərbi hissənin şəxsi heyəti qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirib. Həmçinin yuxarı komandanlıq tərəfindən qoşun xidməti və döyüş hazırlığı vəziyyətinin yoxlanılması zamanı hərbi hissə daha yaxşı nəticələr əldə etdiyinə görə tank bölmələri arasında birinci yeri tutub. Hərbi hissə komandirinə isə Müdafiə naziri general-polkovnik Zakir Həsənov təşəkkür elan edib.***



Hərbi hissədə bildirdilər ki, ötən il ərzində taktiki və komanda-qərargah təlimləri döyüş hazırlığı planına uyğun vaxtında keçirilib. Sürücülük dərsləri, praktik atışlar tankçıların ustalıqlarının bir qədər də artmasına gətirib çıxarıb.

Səhər biz hərbi hissəyə gələndə idarə heyəti ilə yerbəyer keçirilirdi və komandir gün ərzində görüləcək işlər, yerinə yetiriləcək tapşırıqlarla bağlı konkret göstərişlər verirdi. Sonra bölmə komandirləri şəxsi heyətin yanına qayıdaraq günün nizam qaydalarına uyğun olaraq qarşıya qoyulmuş vəzifələri icra etməyə başladılar.

Bizi mehribanlıqla qarşılayan zabit Səxavət Baxışovla hərbi kollektivin fəaliyyəti, xidmət yolu və qazandığı nailiyyətlər barədə söhbət etdik.

- Şəxsi heyətdə ruh yüksəkliyi var, - zabit dedi. - Döyüş texnikasının hamısı saz vəziyyətdədir. İstənilən anda səxsi heyət tam tərkibdə səfər marşı ilə istənilən məntəqəyə çıxmağa və qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirməyə hazırdır. Döyüş hazırlığı planına uyğun olaraq, hərbi hissəmizin şəxsi heyəti, o cümlədən tank heyətləri ilin əvvəlindən döyüş, ixtisas hazırlığı məşğələlərinə cəlb olunur, sürücü-mexaniklər praktik vərdişlərini artırırlar. Yəni tərəfimizdən planlı surətdə bütün döyüş hazırlığı tədbirləri görülür.

Zabit Baxışovla birlikdə hərbi hissənin döyüş maşınları parkına gəlirik. Burada, sözün həqiqi mənasında, bir işgüzar atmosfer hökm sürür. Şəxsi heyət günün nizam qaydalarına uyğun olaraq döyüş hazırlığı məşğələsində iştirak edir, tankların üzərində çalışırdı. Bizi burada zabit Anar Əliyev qarşıladı.

- Tankçı döyüş zamanı gərək ilk növbədə özünə inamlı olsun, - kapitan bildirdi. - Özünə arxayın olmayan hərbçi döyüşçü deyil. İnam isə ixtiyarındakı silahı və ya texnikanı mükəmməl öyrəndikdə, ondan cəld və dəqiq istifadə etməyi bacardıqda qazanılır. Hərbi hissəmizdə döyüşçülərin yaxşı tankçı kimi yetişməsi üçün lazımi şərait var. Praktik məşğələlərdə texnikanın idarə olunması, atışların keçirilməsi döyüşlərdə vacib olan vərdişlərin əldə edilməsinə imkan yaradır.

Təbii ki, hər bir işin bəhrəsi gərgin zəhmət nəticəsində qazanılır və hərbi xidmətdə də belədir. İl ərzində keçirilən döyüş və ixtisas hazırlığı məşğələləri, döyüş atışları, çöl dərsləri, təlimlər hərbi peşəni mənimsəməyə, bilik və vərdişləri möhkəmləndirməyə imkan verir. Bir danılmaz həqiqət də var ki, kollektivdə sağlam və işgüzar mühit mövcud olduqda nailiyyətlər qaçılmazdır.

Hərbi kollektivin müvəffəqiyyətinin əsasında ilk növbədə tankçıların çalışqanlığı, intizamı və ilk növbədə döyüş hazırlığı tədbirlərinin yüksək səviyyədə keçirilməsi durur. Şəxsi heyət öz peşəsini mənimsədikdə ruh yüksəkliyi yaranır, heyət üzvləri inamlı olurlar. Hər bir texnikanın müasir və saz vəziyyətdə olması isə döyüş hazırlığının vacib amilləridir.

Bir amili ayrıca qeyd etməyə dəyər. Bir neçə il əvvəl tank heyətləri müddətli xidmət edən əsgərlərdən formalaşdırılırdı. Onları hazırlayıb yetişdirənə qədər xidmətlərinin müddəti başa çatırdı və onların əvəzinə təzə heyətləri hazırlamaq lazım gəlirdi. İndi heyət tam şəkildə peşəkar mütəxəssislərdən komplektləşdirilib. Bu, tankçılarımızın döyüş hazırlığının artırılmasına bilavasitə təsir göstərən amildir. Müddətdən artıq xidmət həqiqi hərbi qulluqçular olan tuşlayıcı-operator və sürücü-mexaniklər öz vəzifələrinə daha məsuliyyətlə yanaşır və öz bacarıqlarını daha da artırırlar. İndi elə bir heyət yoxdur ki, vəzifəsini mükəmməl yerinə yetirməyi bacarmasın. Hərbi hissənin qazandığı nailiyyətdə tankçıların peşəkarlığı həlledici rol oynayıb və Silahlı Qüvvələrdə hərbi hissə bütün göstəricilərə görə ən yaxşı olub.

Hərbi hissənin uğurlarında bilavasitə zəhməti olan zabit, gizir və əsgərlərdən kapitan Anar Əliyev, tank bölüyünün komandiri baş leytenant Şəhriyar Quliyev, tank komandirləri gizirlər Əzəddin Musayev, Ramil Ağayevin adlarını hərbi hissədə bizə təqdim etdilər. Gizirlər barədə onu da qeyd etdilər ki, onlar zabitlər qədər hazırlıqlı və intizamlıdırlar, verilən tapşırıqları vaxtında və dəqiqliklə yerinə yetirirlər.

- Qazanılmış yaddaqalan nəticə şəxsi heyəti daha həvəslə xidmət etməyə, tankçıların döyüş bacarığını, çöl vərdişlərini daha da yüksəltməyə sövq edir, - zabit Səxavət Baxışov əlavə edir. - Məlum olduğu kimi, 2015-ci il Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən döyüş hazırlığı ili elan edilib. Bizim şəxsi heyət bu gün ikiqat əzmlə çalışır ki, öz bacarığını daha da möhkəmlətsin.

Hazırda hərbi kollektivdə döyüş hazırlığı dərsləri öz axarı ilə gedir və qışın oğlan çağında havanın sərt keçməsindən asılı olmayaraq şəxsi heyət texnikanı idarə etmək, silahlardan sərrast atmaq, taktiki bacarığını artırmaq məqsədilə məşğələlərdə iştirak edir. Axı hərbi əməliyyatlar zamanı təbiətdən münasib hava gözləmirlər, kim daha hazırlıqlıdırsa, o da qalib gəlir.

**Ə. MƏHƏRRƏMOĞLU, "Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Martın 16-dan 20-dək Zalsburq şəhərində (Avstriya) əməliyyat imkanları konsepsiyası qiymətləndirmə və rəy proqramı çərçivəsində qiymətləndiricilər üçün təlim kursu, Helsinki şəhərində (Finlandiya) əməliyyat imkanları konsepsiyası qiymətləndirmə və rəy proqramı üzrə quru qoşunları döyüş hazırlığının qiymətləndirilməsi kursu, martın 18-dən 20-dək isə Minsk şəhərində (Belarusiya) beynəlxalq humanitar hüququn tətbiqi üzrə 5-ci regional seminar keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Təmas xəttində monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 18-də Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov, Saymon Tiller və Piter Svedberq keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, səhra köməkçiləri Yevgeni Şarov və Jiri Aberle keçirəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***17 mart 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 40 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tapqaraqoyunlu, Talış, Tərtər rayonunun Çiləbürt, Çaylı, Göyarx, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Şuraabad, Sarıcalı, Cəvahirli, Mərzili, Baş Qərvənd, Novruzlu, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Alxanlı, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

*Döyüş hazırlığı*

# Düşməndən üstün olmaq üçün...

***Elə mövzular var ki, bəzən onun ilk sətirlərini yazmaq üçün xeyli düşünüb-daşınmalı olursan. Ehtiyatında olan sözləri silkələyirsən, çeşidləyirsən, onların içində çapalayırsan. Oxucunu ardınca çəkib aparmaqdan ötrü sözlərin ən mənalısını seçməyə çalışırsan. Çalışdıqca da yazın gözəlləşir, mövzun ağ vərəqlər üzərində çiçək açır.***



Könül oxşayan, qəlbi riqqətləndirən mövzulardan biri də ordu həyatıdır, hərbi xidmətdir. Bu mövzu hər birimiz üçün müqəddəs və doğmadır. Çünki bu mövzunun önündə Vətən dayanır. O Vətən ki, 20 ildən çoxdur Azərbaycan zabiti, Azərbaycan əsgəri əldə silah göz qırpmadan onu erməni işğalçılarından qoruyur. Qoruyur ki, doğma ocaqlara yağı ayağı bir daha dəyməsin. Azərbaycan vətəndaşları qoynunda dünyaya göz açdıqları bu gözəl diyarda əmin-arxayın yaşasınlar.

Bu gün Azərbaycan əsgəri üzərinə düşən işin öhdəsindən bacarıqla gəlmək üçün daim təlim keçir, hazırlığını, təcrübəsini artırır. Düşməndən üstün olmaq üçün müasir silahların sirlərini öyrənir, yeni döyüş vərdişlərinə yiyələnir. Hər dəfə əsgərlərimizi qüdrətli, güclü gördükcə ürəyimiz açılır, qəlbimiz xoş hisslərə bürünür.

Belə xoş hisslərlə "N" hərbi hissəsində təlim keçən şəxsi heyətə yaxınlaşıram. Məşğələnin ən maraqlı anlarıdır. Əsgərlər yorulmadan silahlarını döyüş vəziyyətinə gətirirlər. Dərs keçən zabit isə əsgərlərə yaxınlaşır, onlara lazımi məsləhətlər verir.

- Əsgərlərin döyüş hazırlığının yüksək səviyyədə olması məşğələlərin səmərəli keçməsinin nəticəsidir, - deyə leytenant Əfsan Abbasov fikirlərini bizimlə bölüşür. - Zabit tabeliyində olan əsgərin uğurunu görəndə qürurlanır. Əsgərlərimizin sınaq təlimlərində qazandığı göstəricilər isə addım-addım bizi məqsədimizə yaxınlaşdırır. Əlbəttə, bu gün təlimdə uğur qazanan əsgərlər, sabah döyüş meydanlarında düşməni asanlıqla məhv edəcəklər.

Budur, əsgərlər yenə də təlim meydanında özlərinə əlverişli mövqe tuturlar. Sonra müxtəlif vəziyyətlərdə silahlarını döyüş vəziyyətinə gətirirlər. Hədəflər nişangahda, barmaqlar tətikdədir. Onlar atışa hazırdırlar. Taqım komandiri əsgərlərin hərəkətlərində heç bir qüsur tapa bilmir. Gənc döyüşçülərin qısa müddətdə hazırlıqlı olmaları onların xidmətlərinə məsuliyyətli olduqlarından xəbər verir.

Təlimdə fəallığı ilə seçilən əsgərlərin adlarını qeyd edirəm. Qoy bu əsgərləri oxucular da tanısınlar. Əsgərlərdən Anar Əmirov, Ramil Fətullayev, Ayxan İbrahimli, Əşrəf Fərzəliyev bugünkü təlimdə daha yaxşı nümunə göstərdilər.

**Mayor Vahid MƏHƏRRƏMOV, "Azərbaycan Ordusu", foto müəllifindir**

# Hüquqi islahatlar Silahlı Qüvvələrin fəaliyyətinin təkmilləşdirilməsi üçün aparılır

**Müsahibimiz Müdafiə Nazirliyi Hüquq İdarəsinin rəisi ədliyyə polkovniki Rauf KİŞİYEVDİR**



***- Cənab polkovnik, Azərbaycan müstəqillik qazandıqdan sonra başlanan ordu quruculuğu prosesi hərbi qanunvericilik sənədlərinin qəbulunu da zəruri etdi. Zaman keçdikcə inkişaf etmiş dövlətlərin təcrübəsi nəzərə alınmaqla həmin sənədlərin təkmilləşdirilməsi hüquqi islahatların tərkib hissəsidir. Bu barədə öz fikirlərinizi bölüşməyinizi xahiş edirəm.***

- Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra bir sıra sahələrdə, o cümlədən ordu quruculuğunda köklü islahatlar aparıldı. Yeni suveren dövlətin yaranması ilə ölkə daxilində yeni ictimai münasibətlər əmələ gəlmişdi və onların tənzimlənməsinə zərurət yaranmışdı.

Əgər tarixə nəzər salsaq görərik ki, hərbi qanunvericilik sahəsini tənzimləyən aktların əksəriyyəti məhz ötən əsrin 90-cı illərinin əvvəllərində qəbul edilmişdi. Həmin vaxtlar Silahlı Qüvvələrin formalaşdırılmasına ciddi ehtiyac olduğundan bu qanunlara böyük zərurət var idi. Misal kimi Silahlı Qüvvələr, Müdafiə, Hərbi qulluqçuların statusu haqqında qanunları çəkmək olar.

Ulu öndər Heydər Əliyevin rəhbərliyilə 1995-ci ildə yeni Konstitusiyamız qəbul edildi. Əsas Qanunumuz təkan verdi ki, yeni tarixi şəraitə uyğun digər normativ aktlar qəbul edilsin.

Həmin dövr üçün bu sənədlər yetərli hesab edilirdi və mümkün qədər mövcud hüquqi münasibətləri tənzimləyirdi. Ancaq vaxt keçdikcə hərbi qanunvericiliyin təkmilləşdirilməsi zərurəti ortaya çıxdığı üçün həmin qanunların təkmilləşdirilməsinə ehtiyac yarandı.

***- Yəqin ki, yenidən hazırlanan qanunlar daha mütərəqqi xarakter daşıyır.***

- Məsələn, hərbi qanunvericilik sistemində əsas qanunlardan biri "Hərbi qulluqçuların statusu haqqında" Qanundur. Müdafiə nazirinin təşəbbüsü ilə həmin qanunun yeni layihəsi hazırlanıb, müvafiq dövlət qurumları ilə razılaşdırılıb. Əlbəttə, mən respublikamızın digər güc strukturlarını nəzərdə tuturam. Beləliklə, həmin qanunda daha proqressiv, sosial yönümlü müddəalar öz əksini tapıb. Bu qanun layihəsi qəbul edildiyi təqdirdə ordu sıralarında xidmət edən həqiqi xidmət hərbi qulluqçuları, həmçinin vaxtilə orduda xidmət edərək ehtiyata və istefaya buraxılmış hərbi qulluqçuların sosial müdafiəsilə bağlı vəziyyətin daha da yaxşılaşması gözlənilir.

***- Həmin kateqoriyadan olan hərbi qulluqçuların sosial müdafiəsi üçün qanun layihəsində hansı yeni müddəalar öz əksini tapıb?***

- Artıq bu, köhnə qanuna dəyişiklik deyil, tamamilə yeni bir qanundur. Misal üçün əgər "Hərbi qulluqçuların statusu haqqında" Qanunun əvvəlki variantında hərbi qulluqçuların yalnız xidməti mənzillə təmin edilməsi nəzərdə tutulmuşdusa, yeni layihədə onların daimi mənzillə müvafiq şərtlər nəzərə alınmaqla təmin edilməsi nəzərdə tutulur. Eyni zamanda ehtiyata və istefaya buraxılmış hərbi qulluqçuların sosial müdafiəsinin xüsusiyyətlərini əks etdirən bir çox müddəalar da layihəyə salınıb.

Yeni müddəalar ilk növbədə hərbi xidmətə münasibətin daha da yaxşılaşdırılması, ordunun cəmiyyətdə nüfuzunun yüksəldilməsi və eyni zamanda həm hərbi qulluqçuların, həm də ordudan tərxis edilmiş vətəndaşların sosial müdafiəsinin gücləndirilməsilə bağlıdır. Bunlar ehtiyatda və istefada olan hərbi qulluqçuların maddi təminat, istirahət, işlə təminolunma hüquqlarına aiddir, eyni zamanda onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da yeni qanun layihəsində nəzərdə tutulub. Bu məsələlərə artıq yeni prizmadan yanaşılır.

Yeni qanun layihəsinə görə, artıq dövlət hərbi qulluqçular qarşısında ikili öhdəlik daşıyır. Yəni həmin vətəndaşların təkcə mənzillə təmin edilməsi deyil, həm də istəkləri nəzərə alınmaqla mənzil əvəzinə pul kompensasiyasının ödənilməsi nəzərdə tutulur. Bu, hərbi qulluqçuların sosial problemlərinin həlli baxımından daha düzgün və ədalətli yanaşmadır. Odur ki, bizim yeni qanun layihəsi daha proqressiv müddəalar əks olunmaqla hazırlanmış bir hüquqi sənəd olacaq.

Orada digər müddəalar da var. Misal üçün yeni qanuna görə hərbi xidmətdən buraxılmaqla bağlı müəyyən məbləğlər müəyyən edilib ki, həmin vətəndaşlar ordudan sonra cəmiyyətə reabilitasiya edilərkən həmin vəsaitlə öz ehtiyaclarını ödəyə bilsinlər.

***- Cənab polkovnik, hüquqi islahatlar ordu quruculuğunun bütün sahələrini və istiqamətlərini əhatə edir. Bu yaxınlarda, daha doğrusu, 24 dekabr 2014-cü il tarixində Müdafiə nazirinin müvafiq qərarına əsasən, orduda Sıra Nizamnaməsi qüvvəyə minib. Bəs burada hansı yeniliklər var?***

- Bildiyiniz kimi, qanunvericiliyə görə, hərbi nizamnamələrin mətnləri Milli Məclis tərəfindən təsdiq edilir. Buraya İntizam, Daxili Xidmət, Qarnizon və Qarovul Xidməti və Sıra nizamnamələri daxildir.

Sıra Nizamnaməsini təsdiqetmə səlahiyyəti Müdafiə nazirinə verildiyindən hörmətli nazirimiz general-polkovnik Zakir Həsənov bu səlahiyyətindən istifadə edərək Sıra Nizamnaməsini təsdiq etdi. Həmin nizamnamə Hərbi Nəşriyyatda böyük tirajla çap edilərək artıq qoşunlara rəhbər sənəd qismində göndərilib.

Məlumdur ki, inkişaf etmiş dövlətlərin ordularında tətbiq edilən standartlar Azərbaycan Ordusunda da öyrənilir, onların bizim Silahlı Qüvvələrdə tətbiqinin məqsədəuyğunluğu nəzərdən keçirilir. Əgər həmin standart və normalar bu və ya digər dərəcədə lazımlı hesab edilirsə, bizdə onlar nəzərə alınaraq qəbul edilir. Yəni şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi baxımından da Sıra Nizamnaməsinin əvəzedilməz önəmi var. Sənəd bu sahədə mövcud olan anlayışları, o cümlədən əsgəri salamlaşma, bölmələrin hərəkəti qaydalarını və sairəni müəyyənləşdirir. Sıra düzülüşü, marş, mərasimlərin keçirilməsi Sıra Nizamnaməsində öz əksini tapıb.

Bu nizamnamə bir sıra yenilikləri özündə əks etdirməklə yanaşı, həm də mövcud olan qaydaların təkmilləşdirilməsini özündə ehtiva edir. Məsələn, Sıra Nizamnaməsinin ən əsas yeniliklərindən biri baş geyimi olmadan hərbi rütbəyə müvafiq olaraq əsgəri salamlaşmadır. Eyni zamanda bir sıra komandaların icra edilməsilə bağlı dəyişikliklər də sənəddə öz əksini tapıb. Şübhəsiz, bütün bunlar birinci növbədə orduda əsgəri intizamın möhkəmləndirilməsinə xidmət edir.

***- Yəqin ki, Sıra Nizamnaməsinin qəbul edilməsi görülən işlərin bir hissəsidir.***

- Əlbəttə. Çünki bundan başqa bizim böyük qanunvericilik aktlarımız var. İntizam, Qarnizon və Qarovul Xidmətləri, Daxili Xidmət nizamnamələrinin yeni, təkmilləşdirilmiş layihələri də, demək olar ki, hazırdır. Biz digər müvafiq orqanların ortaq məxrəcə gəlməyini gözləyirik. Başqa güc strukturları ilə biz razılığa gəlmişik ki, qəbul edildikdən sonra bu nizamnamələr bütün güc strukturlarında tətbiq ediləcək. Əslində həmin nizamnamələrin xüsusiyyəti ondan ibarətdir ki, onlar bütün güc strukturlarında tətbiq olunmaq üçün nəzərdə tutulub. Yəni qarnizon və qarovul xidmətinin, daxili xidmətin təşkili, komandir və rəislərin intizam səlahiyyətinin müəyyən edilməsi - bunların hamısı eyni yanaşma tələb edir. Bu baxımdan başda Müdafiə Nazirliyi olmaqla bütün güc strukturları razılığa gəldilər ki, onların da fəaliyyəti tənzimlənsin.

NATO standartlarına keçidlə əlaqədar hərbi birləşmələrdə bəzi vəzifələrin səlahiyyətlərinə dəyişikliklər edilib, yeni yaradılmış bir sıra vəzifələr və onların səlahiyyətləri artıq yeni Daxili Xidmət Nizamnaməsində öz əksini tapıb, bir sıra dəqiqləşdirmələr aparılaraq sənədə əlavə olunub.

Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsilə bağlı onu deyə bilərəm ki, artıq neçə ildir Azərbaycan Silahlı Qüvvələrində Hərbi Polis institutu fəaliyyət göstərir. Əgər indiyədək onun səlahiyyətləri Əsasnamə ilə, yəni daxili aktla müəyyənləşdirilirdisə, indi Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsində Hərbi Polisin fəaliyyəti də tənzimlənəcək. Beləliklə, hərbi intizamın möhkəmləndirilməsinə böyük köməyi dəyən həmin qurumun səlahiyyətlərinin qanunvericiliklə müəyyən edilməsi zərurət idi. Bu qurumun vəzifəli şəxslərinin səlahiyyətləri də nizamnamədə öz təsdiqini tapıb.

Silahlı Qüvvələrin fəaliyyətində İntizam Nizamnaməsi çox önəmli yer tutur. Hazırkı İntizam Nizamnaməsi 1994-cü ildə qəbul edilib. O vaxtdan bu yana bir sıra struktur dəyişiklikləri aparılıb, müəyyən yeniliklər olub. Ümumiyyətlə, ölkəmizdə aparılan hüquqi islahatlar İntizam Nizamnaməsinə dəyişiklikləri zəruri edib.

Yeni İntizam Nizamnaməsinin qayəsi ondan ibarətdir ki, sənəd orduda hərbi intizamın möhkəmləndirilməsinə xidmət etsin. Bu məqsədlə komandirlər və rəislər kifayət qədər səlahiyyətləndirilməlidirlər və tabelikdə olanlar da hərbi vəzifəni ciddi yerinə yetirməyə borclu olmaqla yanaşı, hüquqi baxımdan müdafiəyə malik olmalıdırlar. Yalnız bu təqdirdə intizamın tələb edilən səviyyədə saxlanmasına və möhkəmləndirilməsinə nail olmaq mümkündür. Ona görə bütün nüanslar nəzərə alınmaqla İntizam Nizamnaməsinin yeni layihəsi hazırlanıb, orduda və digər güc strukturlarında bütün vəzifəli şəxslərin səlahiyyətləri İntizam Nizamnaməsində təsbit edilib.

Eyni zamanda Silahlı Qüvvələrdə cəzalar tətbiq edilməsi məsələsi yenidən nəzərdən keçirildi, onunla bağlı bir sıra zəruri əlavə və dəyişikliklər edildi. Şübhəsiz, ordu sıralarında xidmət edən hərbi qulluqçuların həvəsləndirilməsilə yanaşı, həm də nizamnamə qaydalarının pozulmasının qarşısını almaq zərurəti var. Bunun üçün komandir və rəislər də lazımi səlahiyyətlərə sahib olmalıdırlar ki, bu vəzifənin öhdəsindən gəlsinlər.

Biz beynəlxalq təcrübəni öyrənərək belə bir qənaətə gəlmişik ki, intizam həbsinin tətbiq edilməsi vacib bir məsələdir və onun da tətbiqinin qaçılmazlığı konsepsiyası mövcuddur. Bu sahədə birinci növbədə insan hüquq və azadlıqları nəzərə alınmalıdır. Bu o deməkdir ki, heç kim məhkəmənin qərarı olmadan azadlıqdan məhrum edilə bilməz. Beləliklə, əgər Sovet dönəmində komandirin və rəisin əmrinə əsasən, kimsə intizam qaydasında həbs edilə bilirdisə, yeni İntizam Nizamnaməsinin tələblərinə əsasən, komandir və rəis bu haqda vəsatət qaldırmalıdır. Sonda müstəqil, ədalətli və qərəzsiz şəkildə işə baxan məhkəmə həbsin tətbiqi ilə bağlı qərar qəbul edəcək.

***- Belə çıxır ki, mülki hakim hərbi qulluqçunun həbsi məsələsinə baxacaq?***

- Bu işlərə hərbi məhkəmələr baxacaq. Ancaq orada mülki hakimlər çalışırlar. Əslində bunun kökündə Silahlı Qüvvələr üzərində demokratik nəzarət ideyası durur. Azərbaycan Avropa məkanına inteqrasiya yolunu tutduğu üçün öz qanunvericiliyini də məhz müasir standartlara uyğunlaşdırmalıdır. Ölkəmiz müstəqilliyimizin hələ ilk illərində Roma Konvensiyası deyilən bir sənədə imza atıb. O sənədin adı belədir: "İnsan əsas hüquq və azadlıqlarının müdafiəsi haqqında Roma Konvensiyası". Orda belə bir müddəa mövcuddur ki, heç kəs məhkəmənin qərarı olmadan azadlıqdan məhrum edilə bilməz. İstisnasız olaraq. Demək, əgər komandir hesab edirsə ki, onun tabeliyindəki hərbi qulluqçu kobud intizam xətasına yol verib və buna görə layiqli cəzasını almalıdır, o bununla bağlı zəruri materialları toplayaraq məhkəməyə təqdim etməlidir. Məhkəmə isə qısa müddətdə qərar çıxarmalıdır.

Biz intizam həbsindən danışdığımız üçün bir məsələni də qeyd etməyi vacib hesab edirəm. Belə ki, Müdafiə Nazirliyi tərəfindən kobud intizam işləri üzrə icraat haqqında da qanun layihəsi də hazırlanıb. Bu layihədə məhkəmələrin işləri icraata götürmə, onlara baxma müddəti və qaydaları öz əksini tapıb.

Bir məqama da toxunmaq istərdim. Yaxşı olar ki, Silahlı Qüvvələrdə məcburetmə tədbirləri görməklə bərabər, etimad mühiti də yaradılsın. Ona görə müasir, beynəlxalq hüquq sistemində yeni konsepsiya ortaya çıxıb ki, onun da adı dekriminallaşmadır. Dekriminallaşma bəzi cinayət əməllərinin cinayət kateqoriyasından çıxarılaraq daha az əhəmiyyətli kateqoriyaya keçirilməsidir. Əsgəri yaşlı gənclərin bəzi əməllərinə görə cinayət məsuliyyətinə cəlb edilməsi deyil, daha yüngül cəzanın, məsələn, intizam həbsinin tətbiq edilməsi məqsədəuyğundur. Bununla həmin hərbi qulluqçunun tərbiyə edilməsinə və gələcəkdə sağlam cəmiyyətə qovuşmasına imkan yaranar. Ona görə də iki qanunvericilik layihəsi hazırlandı. Birincisi, kobud intizam xətaları ilə bağlıdır, yəni hansı hallarda həbs nəzərdə tutulur? İkincisi isə, Cinayət Məcəlləsinə əlavə və dəyişikliklər hazırladıq. Yeni Cinayət Məcəlləsinə dəyişiklik edilsin ki, az əhəmiyyətli cinayət törətmiş şəxslər ciddi cəzalara məhkum edilməsinlər. Yeri gəlmişkən qeyd edim ki, bu işi biz Azərbaycan Respublikası Hərbi Prokurorluğunun dəstəyi və köməyilə görmüşük.

***- Sizinlə söhbət əsnasında məlum olur ki, ordu quruculuğu ilə bağlı hüquqi islahatlar baxımından xeyli işlər görülüb və daha yeni qanunvericilik aktlarının hazırlanması nəzərdə tutulur. Artıq Sıra Nizamnaməsi ötən ilin sonlarından qüvvəyə minib. Maraqlıdır, digər hərbi nizamnamələr və qanunvericilik layihələri hazırlanarkən hansı təcrübəyə üstünlük verilir və onlar nə vaxt qəbul ediləcək?***

- Biz öz qanunvericilik aktlarımızı təkmilləşdirərkən, şübhəsiz, dünya təcrübəsini nəzərdən keçiririk. Bu zaman hansısa konkret bir ölkənin təcrübəsinə üstünlük vermirik. Bizim üçün ən önəmlisi Azərbaycanın milli mənafeləridir. Hər ölkənin qanunları həmin xalqın milli mentaliteti, mədəniyyəti, adət-ənənələri və s. nəzərə alınmaqla qəbul edilir. Biz də, əlbəttə, öz maraqlarımız baxımından məsələyə yanaşırıq, amma inkişaf etmiş dövlətlərin təcrübəsindən də istifadə edirik.

Bu sənədlərin qəbulu ilə bağlı, təbii ki, biz konkret tarix söyləyə bilmərik. Bizdən asılı olan işlər artıq görülüb və qanunvericilik aktları hazırdır. Ümid edirik ki, onlar yaxın vaxtlarda Milli Məclis tərəfindən bir-birinin ardınca qəbul ediləcək.

***- Cənab polkovnik, orduda hüquqi maarifləndirmə və hüquqi biliklərin artırılması sahəsində görülən işlər nə səviyyədədir?***

- Müdafiə Nazirliyi Hüquq İdarəsinin fəaliyyəti yalnız sizin qaldırdığınız məsələlərin həlli ilə məhdudlaşmır. Belə ki, idarənin rəhbər sənədlərindən biri olan "Müdafiə Nazirliyi haqqında Əsasnamə"nin tələblərinə görə Hüquq İdarəsinin müəyyənləşdirilmiş fəaliyyət istiqamətləri vardır. Bura hərbi qanunvericiliyin təkmilləşdirilməsi, Müdafiə Nazirliyinin normativ və qeyri-normativ hüquqi aktların hüquqi ekspertizadan keçirilməsi, Nazirliyin hüquq və qanuni mənafelərinin məhkəmələrdə müdafiəsi, vətəndaşların, hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial müdafiəsi, bu şəxslərin müraciətlərinə baxılması işinin təşkili, cinayətkarlığa qarşı mübarizə və hüquq işinin digər aspektləri daxildir.

Hüquqi maarifləndirmə məsələləri Silahlı Qüvvələrin Hüquq xidmətinin fəaliyyətində prioritetlərdən biri hesab olunur. Çünki komandir və rəis heyəti ilk növbədə özlərinin gündəlik fəaliyyətində rəhbər tutduqları sənədləri nə qədər mükəmməl bilsələr, bir o qədər də onların xidməti vəzifələrinin icrasında uğur və müvəffəqiyyətin dərəcəsi artır. Hüquqi baxımdan öz işini düzgün quran vəzifəli şəxslər isə bütövlükdə qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsi kimi Silahlı Qüvvələrin qarşısında duran başlıca məqsədlərə nail olmaq imkanı qazanır.

Hüquqi maarifləndirmə sahəsində görülmüş işlərdən biri də "Zabitin stolüstü kitabı"nın hazırlanmasıdır. Bu kitab digər vəsaitlərdən fərqli olaraq, özündə sadəcə qanunvericilik aktlarını ehtiva etmir. Kitabın belə tərtibatı onu oxucular üçün köməkçi vəsaitə çevirməklə yanaşı, həm də qanunların, fərman və sərəncamların, müxtəlif qərar və digər sənədlərin, o cümlədən Müdafiə nazirinin və onun birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisinin əmr, sərəncam və direktivlərinin zəruri həcmdə ictimaiyyətə çatdırılmasını təmin edir.

Xidməti istifadə üçün nəzərdə tutulmuş "Zabitin stolüstü kitabı"nın başqa bir dəyəri də ondan ibarətdir ki, bu kitabdan təkcə hüquqşünaslar deyil, həm də hüquq təhsili olmayan şəxslər faydalana bilərlər.

Zabit heyətini maraqlandıran xidməti məsələlərə dair cavabları özündə əks etdirən müddəalar zabitlərə xidmətin əvvəlindən sonunadək, hərbi xidmətin ayrı-ayrı tərəflərini nizamlayan qanunvericilik sənədləri, eləcə də Müdafiə Nazirliyinin normativ-hüquqi aktlarının tələbləri ilə ətraflı tanış olmağa imkan verir, bununla da onların bilavasitə maarifləndirilməsinə zəmin yaradır. Gələcəkdə belə kitabın gizirlər, miçmanlar və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün hazırlanması da nəzərdə tutulur.

Ümumiyyətlə, qeyd etmək istərdim ki, hüquq işinin effektivliyinin təmin olunması üçün kompleks yanaşma tələb olunur. Burada əsas məsuliyyət bütün dərəcələrdən olan komandir və rəislərin üzərinə düşdüyündən biz hüquqşünaslar, onlara zəruri hüquqi kömək göstərir və bununla da ordu quruculuğunda son dərəcə vacib olan məsələlərdən birini - qoşunların hüquqi təminatını həyata keçirmiş oluruq.

***- Bir məqama da toxunmağı zəruri hesab edirəm. Kütləvi informasiya vasitələri ilə münasibətlərin tənzimlənməsi baxımından hansı işlər görülür?***

- Zənnimcə, çox yerində verilmiş sualdır. Bu yaxınlarda ölkə ictimaiyyətinin marağına səbəb olan bir sıra hadisələr baş verdi. Ermənistan silahlı birləşmələri ilə təmas xəttində müəyyən təhlükəsizlik tədbirlərinin gücləndirilməsi zərurəti yaranmışdı. Ordu ilə bağlı məlumatların təhrif olunmuş halda ictimaiyyətin diqqətinə çatdırılması heç kəsə, o cümlədən jurnalistlərə başucalığı gətirmir.

Burada söhbət iki məqamdan gedir. Birincisi, ordu üçün önəmli informasiyanın qorunmasından, digəri isə orduda baş verən hadisələr barədə cəmiyyətə Silahlı Qüvvələrin imicinə müsbət təsir göstərən məlumatların çatdırılmasından. Təmas xəttində dövlət sirri təşkil edən müxtəlif məlumatlar daim mövcuddur. Bu, hərbi hissələrin dislokasiya yerləri, hərəkəti şəxsi heyətin sayı və sairlə bağlıdır.

Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı oldu, bir sıra dövlət orqanlarına müxtəlif tapşırıqlar verildi. Sərəncama əsasən, həm də Müdafiə Nazirliyinə jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası qaydalarının hazırlanması tapşırılmışdı. Bu qaydalar Müdafiə Nazirliyi Mətbuat Xidmətinin köməyilə Hüquq İdarəsi tərəfindən hazırlanıb və artıq Nazirlər Kabinetinə təqdim edilib. O qaydalar qüvvəyə minsə, kütləvi informasiya vasitələri, müxtəlif informasiya agentlikləri, qeyri-hökumət təşkilatları, o cümlədən internet-media müəyyən yoxlama proseduru aparılmaqla akkreditə olunmalıdırlar. Akkreditasiyadan keçənlərə press-kart veriləcək və onlar sərbəst fəaliyyət göstərə biləcəklər.

Hüquqi sahəyə gəldikdə isə bizə "Hərbi vəziyyət haqqında" Qanunun yeni layihəsinin hazırlanması tapşırılmışdı. Yeri gəlmişkən, həmin sənəd bizim tərəfdən hazırlanıb, müvafiq dövlət orqanları ilə razılaşdırılıb, hazırda son redaktə işləri aparılır. Həmin qanunda cəbhəboyu zonada əhali üçün müəyyən məqamlar nəzərdə tutulub. Məsələn, cəbhəboyu zonada yerli sakinlərdən patrul dəstələrinin formalaşdırılması yenilikdir. Onların tərkibinə ehtiyatda olan hərbi qulluqçuların və başqalarının cəlb edilməsi məqsədəuyğun hesab edilir. Yəni ordu ilə cəmiyyət arasında əlaqələr daha da güclənməlidir.

Ümumiyyətlə, ordu və cəmiyyət arasında təmasların daha da gücləndirilməsi, bu münasibətlərin qorunması bu gün olduqca önəmlidir. Bu gün NATO ordularında da mülki-hərbi koordinasiya deyilən bir anlayış var. Yəni cəmiyyətlə ordu arasında daha sıx münasibətlərdən, bir-biri ilə əlaqəli surətdə fəaliyyətdən söhbət gedir. Bu ölkəmizdə də qəbul ediləcək yeni qanunvericilik sənədlərində də yer alacaq.

***- Sizin dediklərinizdən belə bir qənaətə gəlmək olar ki, bu gün hərbi hüquqi islahatların əhatə dairəsi genişlənib, hazırlanma intensivliyi də artıb...***

- Şübhəsiz ki, elədir. Cənab Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərdiyi dəstəklə Hüquq İdarəsi tərəfindən qanunvericilik aktlarının hazırlanması işi, doğrudan da, xeyli sürətlənib, bu sahədə səmərəlilik artıb.

Hər hansı layihənin hazırlanması hələ onun qəbul ediləcəyinə zəmanət vermir. Hüquqi islahatların aparılması əslində rəhbərlik tərəfindən müəyyən edilir. Bunun üçün rəhbərliyin istəyi lazımdır, onun siyasi iradəsindən çox şey asılıdır. Artıq bu gün bu istəyin, siyasi iradənin şahidiyik. Müdafiə Nazirliyi rəhbərliyinin qayğısını daim hiss edirik və bu qayğı bizi daha həvəslə fəaliyyət göstərməyə ruhlandırır.

***- Cənab polkovnik, maraqlı müsahibə üçün çox sağ olun.***

**Söhbəti apardı:**
**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Rusiya Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilədən çıxıb



Rusiya Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə üzrə Birgə Məsləhət Qrupunun işində iştirakını dayandırmaq qərarına gəlib. "RİA Novosti"nin verdiyi xəbərə görə, bu barədə Vyanada danışıqlar aparan Rusiya nümayəndə heyətinin rəhbəri Anton Mazur bildirib. O deyib ki, Moskva 2015-ci il martın 11-dən etibarən müqavilədə iştirakını tam dayandırır. Diplomat Birgə Məsləhət Qrupunda Rusiyanın maraqlarını Belarusun təmsil etməsi üçün bu ölkəyə xahişlə müraciət etdiklərini söyləyib.

Bununla yanaşı, A.Mazur qeyd edib ki, bu qərar Moskvanın Avropada adi silahlar üzərində nəzarətə dair dialoqdan imtina etməsi mənasına gəlmir: "Biz adi silahlar üzərində nəzarətə dair birgə işə başlamağa hazırıq və tərəfdaşlarımızın da buna hazır olmasını gözləyirik".

## İzmitdə Xocalı abidəsinin tikintisi başa çatıb




Türkiyənin İzmit şəhərində Ermənistan silahlı qüvvələri tərəfindən dinc azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidənin tikintisi artıq bitmək üzrədir.

İzmitin Yenişəhər məhəlləsində qoyulmuş abidənin ümumi hündürlüyü 2,5 metr təşkil edir. Şəhidlərin ölməzliyini bildirən səmaya doğru ucalmış sütunlardan ibarət abidənin üzərində Xocalı soyqırımı haqqında qısa məlumat yerləşdirilib, Azərbaycan və Türkiyə dostluğunu tərənnüm edən simvollar əks olunub. Bundan başqa, abidənin kənarlarındakı lövhələrdə Xocalıda qətlə yetirilmiş 613 nəfərin adları həkk olunub. Aprelin 22-də Azərbaycan və Türkiyənin dövlət nümayəndələrinin iştirakı ilə abidənin açılışı gözlənilir.

## Andrey Lısenko: Donbasda 12 minədək rusiyalı muzdlu döyüşür



Donbas ərazisində 12 minədək muzdlu silahlı döyüşür. "UNİAN"-ın verdiyi xəbərə görə, bu barədə "5-ci kanal"a Ukraynanın şərqində keçirilən Antiterror Əməliyyatının rəsmi sözçüsü Andrey Lısenko bildirib.

"Əgər biz Rusiya Federasiyasının ərazisindən gələn muzdluları da nəzərdə tuturuqsa, onda bu göstərici təxminən 12 min təşkil edir ", - deyə Lısenko vurğulayıb.

Andrey Lısenkonun sözlərinə görə, Rusiya Federal Təhlükəsizlik Xidmətinin bölgəyə çoxlu sayda ezam olunmuş əməkdaşları yeni hücuma hazırlıq məqsədi ilə Donbasda qanunsuz hərbi qruplaşmanın rəhbərliyinə tabe olmayan silahlılar arasında "təmizləmə" tədbirləri həyata keçirir.

## İŞİD-in atdığı addımlar nə İslama, nə də müsəlman ənənələrinə uyğun deyil



İŞİD İslam dövləti yaratmaq istəyir, ancaq onların atdıqları addımlar nə İslama, nə də müsəlman ənənələrinə uyğun deyil. AzərTAc xəbər verir ki, bu sözləri İŞİD terror təşkilatı tərəfindən əsir götürülən və ötən il sərbəst buraxılan fransız jurnalist Nicolas Henin Türkiyənin Anadolu Agentliyinə müsahibəsində deyib.

Cihad anlayışının İslamın ən önəmli şərtlərindən biri olduğunu qeyd edən fransız jurnalist bildirib: "Cihad insanın özünü və ətrafını daha gözəl vəziyyətə gətirmək üçün apardığı mücadilədir. Bu anlayışdan terror təşkilatının istifadə etməsinə yol vermək olmaz".

İnternetin və sosial mediyanın həmin insanların radikal dünya görüşlərinin formalaşmasına təsir etdiyini qeyd edən Nicolas Henin İŞİD terrorçularının bu hərəkətlərinin İslam dini ilə heç bir əlaqəsi olmadığını vurğulayıb.

## Avropa İttifaqı nüvə yanacağı satışı inhisarçılığına yenidən baxmağa çağırır



Bir sıra Şərqi Avropa ölkələrinin hökumətləri nüvə elektrik stansiyalarına yanacağın eyni mənbədən daxil olmasının mümkünlüyü üzərində dərindən düşünməli olacaqlar. Bu barədə alman qəzetləri Brüsselin Avropa Enerji İttifaqı yaradılması planına istinadla yazırlar. Layihə müəllifləri hesab edirlər ki, "Avropa İttifaqı ölkələri nüvə yanacağı və müvafiq xidmətlərin satışından çox asılıdırlar. Satış təhlükəsizliyinin təmin olunması üçün onların şaxələndirilməsi lazımdır".

Bu fikri təsdiqləyən Avropa İttifaqı məsələləri üzrə dövlət müşaviri Tomaş Prouza deyib: "Məsələ, hələ ki, qəti şəkildə qoyulmayıb, lakin zaman keçdikcə bu işlə də məşğul olmaq lazım gələcək".

Nüvə yanacağı satışında Rusiyanın "TVEL" şirkətinə alternativ isə "Westinghouse" Yaponiya və Amerika şirkəti ola bilər.

## Erməni kəşfiyyatçının cinayət işi məhkəməyə göndərilib



Azərbaycan Cinayət Məcəlləsinin bir neçə maddəsi üzrə təqsirli bilinən erməni kəşfiyyatçısı Arsen Baqdasaryan barəsində istintaq tamamlanıb. Arsen Baqdasaryan ilkin istintaq zamanı və istintaqın sonrakı gedişində təkzibolunmaz sübutların təsiri altında törətdiyi cinayətləri könüllü etiraf edib və işin halları ilə bağlı istintaqa ətraflı məlumat verib.

Hazırda Respublika Hərbi Prokurorluğunda cinayətkar birliyin digər üzvləri barəsində cinayət işi ayrılmaqla, ibtidai istintaq davam etdirilir.

Xatırladırıq ki, ötən il dekabrın 26-da cəbhənin Ağdam rayonu istiqamətində qoşunların təmas xəttini keçən ermənilərin kəşfiyyat-təxribat qrupunun üzvü olan peşəkar hərbi qulluqçu Arsen Baqdasaryan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularının sayıqlığı nəticəsində yaxalanıb və hüquq-mühafizə orqanlarına təhvil verilib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Gənc artilleriyaçılar arasında yarış

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun mütəmadi olaraq cəbhə bölgələrində yerləşən hərbi hissələrdə olması, düşmənlə üzbəüz mövqelərdə döyüş növbəsi aparan Vətən oğulları ilə maraqlanması, onlara dəyərli tövsiyələr verməsi və orduda aparılan uğurlu islahatlar şəxsi heyətin döyüş imkanlarının artmasına şərait yaradır. Təlim və dərslərdə qazanılan bilik və təcrübə vaxtaşırı təşkil olunan yarışlarda nəticəsini göstərir. "N" hərbi hissəsində də bütün döyüş ixtisasları üzrə yarışların keçirilməsi ənənə halını alıb.***



Yarışlarla yanaşı hərbi hissə komandirinin əmrinə əsasən, ön xətdə döyüş növbətçiliyi uğurla təşkil edilir, hərbi qulluqçuların peşəkarlığının artırılmasına ciddi fikir verilir. Günün nizam qaydaları çərçivəsində şəxsi heyət qarşıya qoyulan tapşırıqları icra edir. Hərbi kollektivin təminatıyla bağlı heç bir problem yoxdur. Ön xətdə növbə aparan döyüşçülər bütün lazımi silah və ləvazimatlarla təmin olunublar.

Bu günlərdə top komandirləri arasında keçirilən yarışlarda təcrübəli topçular birincilik uğrunda mübarizə aparıblar.

Yarış zamanı iştirakçıların ixtisas və idman hazırlığı yoxlanılıb. 6 nəfər iştirakçı arasından əslən Ağdam rayonundan olan müddətdən artıq hərbi xidmət hərbi qulluqçusu əsgər Seymur Behbudov birinci yerə layiq görülüb.

Komandirlərin sözlərinə görə, xidmət müddəti ərzində əsgər Seymur Behbudov digər hərbi qulluqçulara örnək olub. Özünü intizamlı, qorxmaz, vətənpərvər hərbi qulluqçu kimi göstərib. O, qısa müddət ərzində nümunəvi xidməti və peşəkarlığı ilə bütün şəxsi heyətin dərin hörmət və ehtiramını qazanıb. Ona verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirib.

Yarışda qalib gələn hərbi qulluqçunun ailəsinə minnətdarlıq məktubu göndərilib, özünə isə təşəkkür elan olunub.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# İdman əsgərlərin döyüş ruhunu daha da artırır

***Əlahiddə Ümumqoşun Ordusunun birləşmə, hissə və bölmələrində təlim-tədris mərkəzləri, kitabxanalar, kinoklublar, ideoloji mərkəzlər, stadionlar, mini futbol meydançaları, müasir idman zalları şəxsi heyətin istifadəsinə verilib. Təbii ki, bütün bunlar hərbi qulluqçuların həm asudə vaxtlarının səmərəli təşkili, həm də mənəvi-psixoloji, fiziki və döyüş hazırlığı səviyyələrinin yüksəldilməsi işinə öz müsbət təsirini göstərməkdədir.***




Şəxsi heyətin fiziki hazırlığında idmanın rolu danılmazdır. Elə ona görədir ki, orduda idmanın maddi-texniki bazasının müasir səviyyədə qurulması hərbi qulluqçuların fiziki vərdişlərinin möhkəmlənməsinə, müxtəlif idman yarışlarının keçirilməsinə imkan verir.

Bu günlərdə Əlahiddə Ümumqoşun Ordusu üzrə hərbi qulluqçular arasında 100 metr məsafəyə qaçış birinciliyi keçirilib. Xeyli idmançının iştirak etdiyi yarışın sonunda qalib komandalar müəyyən edilib. Fərdi hesabda müvafiq olaraq 1-ci, 2-ci və 3-cü yerlərə əsgərlər Əhməd Cəfərov, Araz Əsədov və Camal Novruzov layiq görülüblər. Qalib hərbi qulluqçular və komandalar fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar. Qaliblərin təltif edilməsi Ordu Komandanlığı tərəfindən həyata keçirilib. Təltifetmə zamanı bildirilib ki, belə kütləvi idman tədbirlərinin keçirilməsi şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, bölmələr arasında səmimi rəqabət hissinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.



**Nəriman NƏCƏFOV,**
**Naxçıvan**

## Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## İdman

### Litvada "Bakı-2015" ilk Avropa Oyunlarına həsr olunmuş açıqcalar buraxılıb



Litva Olimpiya Komitəsi poçt vasitəsi ilə Litva fanatlarına Bakıda keçiriləcək birinci Avropa Oyunları barədə məlumat vermək və beləliklə, oyunlarda Litva idmançılarını dəstəkləmək təşəbbüsü ilə çıxış edib. Bununla əlaqədar üzərində Avropa oyunlarının rəmzi olan açıqcalar buraxılıb. Litva Olimpiya Komitəsinin prezidenti Dayna Qudzinyaviçyute deyir: "İndiki zamanda poçt qutusunda dostunun göndərdiyi imzalı açıqcanı görmək xoş sürprizdir. Biz bu təşəbbüsü dəstəklədiyinə görə Litva Poçtuna minnətdarıq və hamını öz tanışlarına açıqca göndərməyə, bununla da idman tarixində möhtəşəm hadisə olan "Bakı-2015" Birinci Avropa Oyunları barədə məlumat verməyə çağırırıq".

### Boksçumuz beynəlxalq reytinq cədvəlində birinci pilləyə yüksəlib




Dünya Boks Seriyasında (WSB) yeni fərdi reytinq cədvəli açıqlanıb. AzərTAc xəbər verir ki, 60 kiloqram çəki dərəcəsində dünya və Avropa çempionu Albert Səlimov dörd görüşdən sonra 20 xalla birinci yerə yüksəlib. "Baku Fires" klubunun üzvü siyahıda kubalı Alvarez Estrada və rusiyalı Adlan Abdurraşidovu qabaqlayır. Məhəmməd Qurbanov (56 kq) reytinqdə ikinci sıradadır. Üç döyüşdən sonra 15 xal toplayan boksçumuz yalnız amerikalı Fransisko Martinezden geri qalır. Arslanbek Mahmudov (91 kq-dan yuxarı) döyüşlərinin çoxunu nokautla başa vurmağına baxmayaraq, üçüncü pillədədir. On doqquz xalı olan boksçumuzu xorvatiyalı Filip Hrqoviç və britaniyalı Cozef Coyz qabaqlayırlar.

### Qadın güləşçilərimiz dünya kuboku yarışlarını beşinci pillədə başa vurublar



Rusiyanın Sankt-Peterburq şəhərində qadın güləşi üzrə dünya kuboku yarışları başa çatıb. Yarışda Azərbaycanla yanaşı, Yaponiya, Polşa, ABŞ, Rusiya, Ukrayna, Monqolustan və İsveç güləşçiləri də iştirak ediblər. AzərTAc xəbər verir ki, komandamız mübarizə apardığı "A" qrupunu 3-cü yerdə tamamlayıb. Qızlarımız digər qrupu 3-cü yerdə tamamlayan Ukrayna güləşçiləri ilə 5-ci yer uğrunda qarşılaşıb. Ümumi hesab 4:4 hesabı ilə başa çatsa da, texniki göstəricilərə görə rəqibindən üstün olan yığma komandamız dünya kuboku yarışlarını 5-ci sırada tamamlayıb. Yığma komandamızın üzvlərindən ən yaxşı göstərici Mariya Stadnikə məxsusdur.

### Azərbaycan velosipedçisi "Porec Trophy" yürüşündə üçüncü olub




Xorvatiyada Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) 1.2 kateqoriyalı "Porec Trophy" yürüşü keçirilib. Yarışda Azərbaycanın kontinental velosiped komandası "Synergy Baku" da mübarizə aparıb. AzərTAc xəbər verir ki, birgünlük yarışda iştirakçılar 143 kilometr məsafə qət ediblər. Qeyd edək ki, ötənilki "Porec Trophy" turnirinin qalibi, Azərbaycanın elit yığması və "Synergy Baku"nun üzvü Maksim Averin finişə yaxın ərazidə sprint mövqeyinə çıxıb. Fotofinişə əsasən, velosipedçimiz 3-cü yeri tutub. Bu isə ona "Rio-2016" Yay Olimpiya Oyunlarına daha 16 lisenziya xalı qazanmağa imkan verib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

*Əsgərin tribunası*

# Ordu həyatı ömrümün ən şərəfli dövrüdür



***Elmdə, təhsildə əldə olunan biliklər həmişə adamın əlindən tutur. Bunu öz həyatımda təcrübəmdən keçirmişəm. Orta təhsilimi Xətai rayonundaki 245 nömrəli məktəbdə almışam. Həmişə dərslərimi yaxşı oxumağa, yüksək qiymətlər almağa çalışırdım. Bütün fənlərə maraq göstərirdim. İstəyirdim ki, hərtərəfli biliyim olsun.***

Orta məktəbi uğurla başa vurduqdan sonra ali təhsil almaq məqsədi ilə sənədlərimi Milli Aviasiya Akademiyasına verdim. İmtahandan uğurla keçdim, yaxşı nəticə göstərdim. Topladığım ballar ali təhsil ocağına gedən qapıları üzümə açdı. Arzuma yetdim, hava nəqliyyatı fakültəsinə daxil oldum. Marağında olduğum bu ixtisasın sirlərinə dərindən yiyələndim.

Təhsilimi bitirəndə ordu sıralarına çağırıldım. Ömrümün ən şərəfli dövrünə qədəm qoydum. Həyatımın yaddaqalan günləri başlandı. Vətənə əsgər olmuşdum, əynimə hərbi forma geyinmişdim. İlk günlərdən hərbi bilikləri həvəslə öyrənirdim. Döyüş vərdişlərini mənimsəmək, hərbi bilikləri qavramaq mənim üçün çətin olmadı. Çünki hələ orta məktəb illərində hərbi dərslərə marağım var idi. Hüseyn müəllim hərbi fənni şagirdlərə həvəslə tədris edir, bizə ordu həyatını sevdirməyə çalışırdı.

Orta məktəbdə öyrəndiyim biliklər ordu sıralarında təcrübəli əsgər olmağıma təkan verdi. Bacarıqlı zabitlərin keçdikləri dərs və məşğələlərdə fəal iştirak edərək peşəkarlığımı daha da artırdım. Səkkiz aydan çoxdur ki, hərbi xidmətdəyəm. Bu müddət ərzində bir neçə dəfə irimiqyaslı təlimlərdə iştirak etmişəm. Hər dəfə də hədəfləri dəqiq vuraraq yaxşı nəticələr göstərmişəm. Xidmətimiz komandirlərimiz tərəfindən həmişə yüksək qiymətləndirilir.

Ötən müddət ərzində tankəleyhinə raket kompleksinin sirlərinə dərindən yiyələnmişəm. Döyüşlər zamanı düşmənin alçaqdan uçan hava hədəflərini, yüngül çöl qurğularını dəqiq atəş zərbəsi ilə məhv etməyə qadirəm. Belə peşəkarlıq qazandığıma görə komandirimiz baş leytenant Mirdamət Bağıyevə minnətdaram. Onun kimi təcrübəli komandirlərin köməyi sayəsində biz hərbi bilikləri dərindən öyrənirik.

**İmran MƏHƏRRƏMOV,**
**"N" hərbi hissəsinin**
**əsgəri**

# Dünənin döyüş yolu bu günümüzə örnəkdir

***"N" hərbi hissəsi 1992-ci il martın 7-də ağır savaşlar gedən bir vaxtda yaradılıb. Hərbi hissənin zabit və əsgərlərinin döyüş yolu Ağdərədən, Laçından, Ağdamdan, Cəbrayıldan, Zəngilandan, Qubadlıdan, Füzulidən və Kəlbəcərdən keçib. Əməliyyatlar zamanı şəxsi heyət üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Erməni işğalçılarına qarşı döyüşlərdə hərbi hissənin onlarla hərbi qulluqçusu şəhid olub və yaralanıb.***



Ümummilli liderimiz Heydər Əliyevin müvafiq fərmanları ilə onların bir çoxu döyüşlərdə göstərdiyi şücaətə görə layiqincə qiymətləndirilib. Hərbi hissənin ilk komandiri Asif Məhərrəmov (Fred Asif) və əsgər Pərviz Səmədov ölümlərindən sonra ən yüksək ada - Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüşlər.

Martın 7-də hərbi hissənin yaranmasının 23-cü ildönümü münasibəti ilə tədbir keçirilib. Tədbirdə Bakı Slavyan Universitetinin müəllim və tələbələri, ictimaiyyətin nümayəndələri iştirak ediblər. Əvvəlcə mərasim iştirakçıları hərbi hissədə şəhidlərin şərəfinə ucaldılmış abidəni ziyarət ediblər. Şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad olunub. Qonaqlara hərbi hissənin keçdiyi şərəfli döyüş yolu barədə geniş məlumat verilib.

İldönümü münasibəti ilə şəxsi heyəti təbrik etmək üçün Azərbaycan Respublikası Milli Qəhrəmanları Birliyinin sədri Mirbəşir Seyidzadə, Bakı Slavyan Universitetinin rektoru professor Asif Hacıyev, Milli Qəhrəman İlqar İsmayılovun qardaşı, ehtiyatda olan polkovnik-leytenant İlham İsmayılov, "Xocalı Soyqırımını Tanıtma" ictimai birliyinin sədri Şamil Sabiroğlu, Milli Qəhrəman Asif Məhərrəmovun adını daşıyan İnkişaf Fondunun sədri, 2-ci qrup Qarabağ müharibəsinin əlili Hacı Ədalət Məhərrəmov, Soyqırımı və Terrorizm Əleyhinə İctimai Təşkilatlar Koalisiyasının sədri Elşad Əliyev, Xan Şuşinski adına Ağdam rayonlararası musiqi məktəbinin, "Qarabağ Bülbülləri" ansamblının bədii rəhbəri, əməkdar mədəniyyət işçisi Rafiq Rüstəmov, hərbi hissənin ilk qərargah rəisi, "Azərbaycan Bayrağı" ordenli zabit Sultan Bəndəliyev, Bakı Slavyan Universitetinin professoru Sadiq Məmmədov, polkovnik-leytenantlar İlqar Nəciyev, Elsevər Orucov və başqalarına söz verilib. Onlar şəxsi heyətə xidmətlərində uğurlar arzulayıblar.

Ağdam rayonlararası musiqi məktəbinin ansamblı, həmçinin Bakı Slavyan Universitetinin tələbələri şəxsi heyət qarşısında maraqlı konsert proqramı ilə çıxış ediblər.

Polkovnik-leytenant İlqar Nəciyev mərasimə gəlmiş qonaqları fəxri fərmanlarla mükafatlandırıb və onlara minnətdarlığını bildirib.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xarici hərbi xronika

### ABŞ Hərbi Hava Qüvvələri

Amerika ordusunun əsas aparıcı qollarından biri hərbi hava qüvvələridir. Bu qoşun növü hava və kosmik ərazidə qarşıya qoyulan bütün tapşırıqların yerinə yetirilməsinə cavabdehdir. Onun tərkibinə qitələrarası ballistik raket və X-37 orbital təyyarələrindən tutmuş A-10 Thunderboolt hücumçuları daxildir. Hərbi Hava Qüvvələrinin silahlanmasında Raptor F-22, F-35, F-15 və F-16 daxil edilməklə 5600-ə qədər müxtəlif növlü təyyarələr, B-2, B-1 və B-52 strateji bombardmançılar, eləcə də S-5, S-17 və S-130 nəqliyyat maşınları durur. Onun bazaları ABŞ-ın əsasən sərhədlərində - Britaniyadan tutmuş Yaponiyaya qədər yerləşdirilib.

Hərbi Hava Qüvvələrinin tərkibində həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların sayı 312000 nəfərdir.

ABŞ dövləti dünyada ilk dəfə olaraq silahlanmasına gözəgörünməz döyüş təyyarələrini qəbul edib. Bununla da görünməz aviasiyanın yaradılmasına nail olub. Bu dövlətin müasir hərbi aviasiyası 1763 ədəd F-35 qırıcılarını və 100 ədəd uzaqməsafəli pulotsuz və pilotlu bombardmançıları əldə etməklə öz üstünlüyünü qoruyub saxlamaq niyyətindədir.

### Robot-balıqların sınağı keçirilib

ABŞ Hərbi Dəniz Qüvvələrinin mühəndisləri su altında kəşfiyyat aparmaq içün nəzərdə tutulmuş robot-balıqların ilkin sınağını həyata keçiriblər. "The Washinqton Post" qəzetinin verdiyi məlumata görə, layihənin qiyməti bir milyon dollar təşkil edir. Robotun uzunluğu 1.5 metr, çəkisi 45 kiloqramdır. Robot-balıq adi balığa məxsus bütün hərəkətləri təkrar etmək qabiliyyətinə malikdir. Onun oxşarı isə saatda 75 kilometrə qədər hərəkət edə bilir. Robotun bu xüsusiyyətləri onun mühafizə olunan sularda, minaların axtarılmasında və yüklərin daşınmasında əhəmiyyətini artırır. Robot-balığın sınağı Virginiya ştatında həyata keçirilib. Onun heç bir reaktiv mühərriki də yoxdur. O öz quyruğunun hərəkətinə görə üzür. Robot distansion idarə oluna bilər və yaxud onu avtomatlk rejimə də gətirmək olar. Bu qurğu gələn il Amerikanın Hərbi Dəniz Qüvvələrinin silahlanmasına daxil ediləcək.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

Baş leytenant Cəlali Əjdər Cəlal oğluna 2010-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Ağayev Sahil Təbriz oğluna 2011-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 315
Nüsxə 4600